**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 03 **"**08**"** Yanvar **2016-cı il**

**20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 15 dekabr 2015-ci il tarixli, 96 nömrəli Sərəncamını, Bakı Şəhər İcra Hakimiyyətinin başçısının "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi haqqında" 28 dekabr 2015-ci il tarixli, 564 nömrəli Sərəncamının icrası məqsədilə "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22 bəndini rəhbər tutaraq

**Q ə r a r a  a l ı r a m:**

1. "Binəqədi rayonunda 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.

3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova həvalə edilsin.

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən, birinci müavin** **İlqar Süleymanov**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**№** 11.

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“ 08 ” Yanvar 2016-cı il tarixli**
**03 saylı Sərəncamı ilə təsdiq edilmişdir**

**20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Rayon ərazisində 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə əlaqədar tədbirlərin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər, bələdiyyələr, təhsil müəssisələri | V. İsmayılov<br>R.Göyüşov<br>E.Dadaşov | 14-20.01 2016 |
| 2. | “20 Yanvar-Tariximizin qanla yazılan şanlı səhifəsi” mövzusunda Məlumat Saatının keçirilməsi | Rayon İcra Hakimiyyəti, Prezident Kitabxanası | V. İsmayılov<br>E.Dadaşov<br>N.Mustafa | 14.01.2016 |
| 3. | Biləcəri qəsəbəsində yerləşən 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış “Güllə Yağışı” abidəsinin yerləşdiyi parkın ərazisində təmizlik və abadlıq işlərinin aparılması | Rayon İcra Hakimiyyəti, RİH başçısının Biləcəri QİƏD üzrə nümayəndəliyi, Biləcəri Bələdiyyəsi, Binəqədi rayon MKTB | İ.Süleymanov<br>E.Rəhimov<br>İ. İbrahimov<br>H.Quliyev<br>A.Məmmədov | 15-20.01. 2016 |
| 4. | 20 Yanvar şəhidi Əliyev Rüstəm Şahvələd oğlunun adını daşıdığı 3 nömrəli tam orta məktəbdə anım tədbirinin keçirilməsi | Rayon Icra Hakimiyyəti, 3 saylı tam orta məktəb | V. İsmayılov<br>E.Dadaşov<br>N.Əsədova | 18.01.2016 |
| 5. | 20 Yanvar faciəsində şəhid və əlil olmuş şəxslərin ailələri ilə görüş və onlara humanitar yardım verilməsinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Bələdiyyələr, Binəqədi rayon ƏSMM, “20 Yanvar” Cəmiyyətinin rayon şöbəsi | V. İsmayılov<br>E.Dadaşov<br>R.İsayev<br>A.Xankişiyev | 15.01.2016 |
| 6. | Rayonun orta ümumtəhsil müəssisələrində “Qanlı Yanvar” faciəsinə həsr olunmuş xüsusi dərsin keçirilməsi | Rayonda yerləşən orta ümumtəhsil müəssisələri | V. İsmayılov<br>E.Dadaşov | 18-19.01 2016 |

| | | | | |
|---|---|---|---|---|
| 7. | 20 Yanvar faciəsinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə internet şəbəkələrdə faciə barədə materialların verilməsi | Rayon İcra Hakimiyyəti,<br>YAP Binəqədi rayon təşkilatı,<br>Rayon Gənclər və İdman İdarəsi | V. İsmayılov<br>R.Göyüşov<br>E.Dadaşov<br>Q.Bayramov | 18-20.01<br>2016 |
| 8. | 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünə həsr olunmuş təhsil, məktəbəqədər təhsil və mədəniyyət müəssisələrində "20 Yanvar – Xalqımızın Qəhrəmanlıq salnaməsidir" mövzusunda inşa yazı, rəsm müsabiqələrinin, ədəbi-bədii kompozisiyanın keçirilməsi, tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Rayon Gənclər və İdman İdarəsi,<br>Təhsil müəssisələri,<br>Məktəbəqədər təhsil müəssisələri,<br>Mədəniyyət müəssisələri,<br>Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzləri | V. İsmayılov<br>E.Dadaşov<br>Q.Bayramov | 15-19.01<br>2016 |
| 9. | Rayon ərazisində fəaliyyət göstərən dini qurumlar tərəfindən 20 Yanvar faciəsi zamanı şəhid olanların xatirəsi üçün xüsusi dini mərasimlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Dini icmalar | V. İsmayılov<br>E.Dadaşov<br>Dini icmaların rəhbərləri | 18-20.01<br>2016 |
| 10. | Rayon ictimaiyyətinin "Güllə Yağışı" abidəsinə ziyarətinin təşkil edilməsi və "20 Yanvar" parkında tədbirin keçirilməsi | Rayon İcra Hakimiyyəti | İ.Süleymanov<br>V.İsmayılov<br>R.Göyüşov<br>E.Dadaşov<br>Y.Hüseynov<br>Y.Əliyev<br>E.Rəhimov<br>E.İmanov | 19.01.2016 |
| 11. | Rayon ictimaiyyətinin "Şəhidlər Xiyabanı"na ziyarətinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti,<br>YAP Binəqədi Rayon Təşkilatı,<br>Binəqədi rayon Gənclər və İdman İdarəsi | İ.Süleymanov<br>V.İsmayılov<br>R.Göyüşov<br>E.Dadaşov<br>Y.Hüseynov<br>Y.Əliyev<br>E.Rəhimov<br>E.İmanov<br>Q.Bayramov | 20.01.2016 |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Rayon ərazisində Şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və avtomobillər vasitəsilə səs siqnallarının verilməsi | Rayon İcra Hakimiyyəti, Rayon Polis İdarəsi | N.İsmayılov | 20.01.2016 saat 12:00 |
| 13. | 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə bağlı matəm əlaməti olaraq və faciə qurbanlarını yad etmək məqsədilə rayon ərazisində dövlət bayraqlarının endirilməsi | Rayon İcra Hakimiyyəti, Qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər, Bələdiyyələr, Binəqədi rayon MKTB | V. İsmayılov<br>R.Göyüşov<br>A.Məmmədov | 20.01.2016 |
| 14. | 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə bağlı keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırlmasının təmin edilməsi | Rayon İcra Hakimiyyəti | V. İsmayılov<br>E.Dadaşov | 16-20.01 2016 |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Vüsar İsmayılov**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Elman Dadaşov**